# AZƏRBAYCANIN DAĞLIQ-ŞİRVAN FİZİKİ-COĞRAFİ RAYONUNUN QARIŞÇI KƏPƏNƏKLƏRİNİN (*LEPIDOPTERA, GEOMETRIDAE*) FAUNASI

**Səkinə Hacıyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu, biosekine@mail.ru*

Böyük Qafqaz dağlarının cənub-şərq kənarları Dağlıq Şirvan fiziki-coğrafi rayonuna daxildir. Rayon şimalda Böyük Qafqaz silsiləsinin suayrıcından cənub və cənub-qərbdə Şirvan düzünə qədər uzanır. Azərbaycanın Dağlıq Şirvan fiziki-coğrafi rayonuna Şamaxı, İsmayıllı, Ağsu rayonları, Göyçay və Qobustan rayonlarının dağlıq hissələri daxildir. Ərazinin özünəməxsus flora və faunası vardır. Meşə sahələrinin çox olması, əlverişli iqlim şəraiti lepidofaunanın zənginliyinə səbəb olmuşdur.

Qarışçılar kəpənəklər dəstəsinin sayca böyük fəsilələrindən biri olub, 9 yarımfəsiləyə (*Alsophilinae, Archiearinae, Desmobathrinae, Ennominae, Geometrinae, Larentiinae, Oenochrominae, Orthostixinae, Sterrhinae*), 2000 cinsə mənsub 23000 növlə təmsil olunmuşdur. Azərbaycanda qarışçı kəpənəklər faunası Abşeron-Qobustan təbii rayonunda öyrənilmişdir. Naxçıvan MR onurğasızlar faunasının taksonomik spektrində 4 yarımfəsiləyə, 44 cinsə mənsub 91 növ qarışçı kəpənək qeyd edilmişdir.

Şamaxı rayonunun Əngəxaran, Pirqulu, Dəmirçi, İsmayılli rayonunun Qaraqaya, İvanovka, Lahıc, Ağsu rayonunun Musabəyli, Hunqar kəndlərindən yaz, yay və payız aylarında (2017-2021-cu illər) tərəfimizdən nümunələr toplanılmışdır. Kolleksiya materialları isə 1960-1988-ci illəri əhatə edir. Nümunələr gecələr qurulan "Econom-75" lampasının və fərdi təsərrüfatların işığından yığılmış, gündüzlər isə entomoloji tor vasitəsilə tutulmuşdur. Növlərin təyinində MBS-10 mikroskopundan, təyinedici ədəbiyyatlardan və sistematik işlərdən istifadə olunmuşdur. Həmçinin toplanılmış tırtıllardan laboratoriya şəraitində alınan kəpənəklər də təyin edilərək, Zoologiya İnstitutunun kolleksiya fonduna daxil edilmişdir.

Materialların toplanıldığı ərazilərin koordinatları: Şamaxı, Dəmirçi, 40°50' N48°33' E; İsmayıllı, İvanovka, 40°44' N48°01' E; İsmayıllı, Lahıc,40°84' N48°38' E; İsmayıllı, Qara qaya, 40°78' N48°31' E; Ağsu, Musabəyli, 40°38' N 48°19' E.

Azərbaycanın Dağlıq Şirvan fiziki-coğrafi rayonunun müxtəlif ərazilərində aparılan tədqiqatlar zamanı qarışçı kəpənəklər fəsiləsinin 6 yarımfəsiləsinə, 98 cinsinə mənsub 168 növ aşkar edilmişdir.

*Biston betularia* (Linnaeus, 1758), *Gnophos ciscaucasia* (Riabov, 1964), *Hypomecis robaria* (Denis and Schiffermuller, 1775), *Scopula minorata* (Boisduval, 1833), Idaea biselata (Hufnagel, 1767), Combaena bajularia (Deniz and Schiffermüller, 1775), Chlorissa cloraria (Hubner, 1813), Macaria signaria (Hubner,1809), Megaspilates mundataria (Stoll,1782) növləri və *Crocallis inexpectata ssp.caucasica* (*Wehrli,1932*) yarımnövü Azərbaycan faunası üçün ilk dəfə göstərilir.

Azərbaycanın Dağlıq Şirvan fiziki-coğrafi rayonunun müxtəlif ərazilərində aparılan tədqiqatlar zamanı qarışçı kəpənəklər fəsiləsinin 6 yarımfəsilə, 98 cinsə mənsub 168 növü aşkar edilmişdir. 68 növ və *Crocallis inexpectata ssp.caucasica* (*Wehrli,1932*) yarımnövü bu fauna üçün ilk dəfə göstərilir.